# SARI SİMLİ RÜBABIN MUSİQİSİ



**Tofiq Quliyev milli musiqi xəzinəmizə əvəzsiz töhfələr verən görkəmli bəstəkarlardan biridir. Şərəfli sənətkar həyatı yaşayan Tofiq Quliyevin zəngin yaradıcılığı musiqi tariximizdə xüsusi inkişaf mərhələsidir; fitri istedadı ilə yazdığı gözəl əsərlər böyük təsir gücünə malikdir.**

**Bu il görkəmli bəstəkar Tofiq Quliyevin anadan olmasının 100 ili tamam olur.**

Hələ ilk gənclik illərində o, bəstəkar Z.Bağırovla birgə "Rast", Segah", "Zabul", "Dügah" muğamlarını fortepianoda hazırlayır. Tofiq Quliyev yaradıcılığı boyu bir çox janrlara müraciət etmişdir. Müxtəlif illərdə yazdığı "Aktrisa", "Qızıl axtaranlar", "Sənin bircə sözün", "Sabahın xeyir, Ella" kimi operettalar çoxcəhətli bəstəkarlıq dühasının parlaq ifadəsidir. Gənc Tamaşaçılar Teatrının, Gəncə Dram Teatrının, Azərbaycan Akademik Milli Dram Teatrının, Kukla Teatrının 30-dan çox tamaşasına bəstələdiyi musiqilər ona sənətkar şöhrəti gətirir. O, Azərbaycan caz və estrada musiqisinin banilərindən biridir. Simfonik əsərlərində, kantatalarında, fortepiano əsərlərində təkrarsız istedadı özünü aydın göstərir.

Tofiq Quliyevin yaradıcılığını mahnı janrından ayrı təsəvvür etmək mümkün deyil. Onun mahnıları həmişə sevilə-sevilə dinlənir; zövqləri, ruhları oxşayır. Bu gün görkəmi daha da gözəlləşən paytaxtımızın simasında "Bakı" haqqında mahnısının aydın səslənən qüvvətli akkordları "Sən mənimsən, mən sənin" bir məhəbbət himni kimi oxunur. Qaşı firuzədən olan "Qızıl üzük" işığını itirmir, cazibəsi ürəkləri ovsunlayır...

O, milli kino musiqimizin də beşiyi başında dayanan görkəmli bəstəkarlardan biridir. Kinomuza yeni musiqi məfkurəsi, fərqli üslub, düşüncə tərzi gətirən, yaradıcılığı ilə musiqili komediya janrına yeni inkişaf mərhələsi yaşadan bir sənətkardır. Onun musiqi partiturasında coşqun, alovlu həyat var. Vətən sevgisi, məhəbbət, vüsal eşqi—əbədiyaşar musiqisinin ən qüvvətli akkordlarıdır.

Musiqisi bəzən Xəzərin coşqun dalğaları kimi şahə qalxır, bəzən də xəfif ləpələri təki sanki dil açıb danışır, ürəklərin doğma həmdəmi, müsahibi olur. Bəstəkarı olduğu filmlər ruhlara hakim olan gözəl musiqisi ilə ürəklərdə, könüllərdə yaşayır. Leyla Bədirbəyli, Barat Şəkinskaya, Mərziyə Davudova, Münəvvər Kələntərli, Rəşid Behbudov, Hüseynqulu Sarabski, Kazım Ziya, İsmayıl Dağıstanlı, Ağadadaş Qurbanov, Möhsün Sənani, Ağasadıq Gəraybəyli, Məmmədrza Şeyxzamanov, Həsənağa Salayev və onlarla digər görkəmli sənətkarların gözəl aktyor oyunu ilə bərabər Tofiq Quliyevin ecazkar musiqisi bu gün də tamaşaçıları ekran qarşısına toplayır. Sənətsevərlər "Səbuhi", Bəxtiyar", "Görüş", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Telefonçu qız", "Möcüzələr adası", "Nəsimi", "Qayınana", "Musiqi müəllimi", "Əzablı yollar" filmlərinə yazdığı musiqiləri, lirik mahnıları yaxşı xatırlayırlar...

Tofiq Quliyev doğma Bakıya, dalğalı Xəzərə mənəvi tellərlə son dərəcə bağlı idi. Əziz şəhərilə həmişə öyünür, fəxarət hissi yaşayırdı. Unudulmaz sənətkarın xatirələrindən...

*Mən Bakılıyam. Bakıda anadan olmuşam. Məni oxudan da, böyüdən də, insan edən də Bakı şəhəri olub. Bakı çox gözəl şəhərdir. Bakı kimi gözəl şəhər tanımıram. Mən çox ölkələrdə olmuşam, çox şəhərlər görmüşəm, lakin Bakı gözəlliyində şəhər görməmişəm. Ona görə mən nə mahnı yazsam, orada hökmən Bakının adı çəkilir. Bakının dənizindən danışıram. Bakının sahilindən danışıram. Bakının şəhərindən, adamlarından insanlarından... Belə gözəl şəhər yoxdur dünyada...*

Quliyev Tofiq Ələkbər oğlu 7 noyabr 1917-ci ildə Bakının yaxınlığındakı Bilgəh kəndində qulluqçu ailəsində dünyaya göz açıb. 12 yaşlı Tofiq ilk musiqi təhsilini Konservatoriyanın nəzdindəki fəhlə fakültəsində alır. 1934-36-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasında oxuyur. 1935-ci ildə Azərbaycan Dövlət Dram Teatrında dirijor kimi fəaliyyət göstərir. Azərbaycan muğamlarını nota köçürür. 1934-36-cı illərdə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Moskva Dövlət Konservatoriyasında təhsilini davam etdirir. 1939-cu ildə milli orkestr təşkil edir. 1940-cı ildən kinoda işləməyə başlayır.

Böyük Vətən Müharibəsinin ilk aylarında milli orkestrin əsasında "Qırmızı ordu" adlı ansambl yaradır. Ansambl 402-ci diviziyanın tərkibində ön cəbhədə çıxış edir. Müharibə illərində gənc bəstəkar vətənpərvərlik ruhunda mahnılar yazır.1951-ci ildə Moskva konservatoriyasını, 1954-cü ildə isə oradaca aspiranturanı bitirir. 1954-58-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında orkestr sinfinə rəhbərlik edir. 1961-64-cü illərdə Azərbaycan Dövlət Filarmoniyasının direktoru olur.

1969-cu ildən 1979-cu ilə qədər Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik edir. 1990-cı ildən ömrünün sonuna kimi Azərbaycan Bəstəkarlar İttifaqının idarə heyətinin sədri vəzifəsində çalışır. Görkəmli bəstəkar ümummilli lider Heydər Əliyev tərəfindən "İstiqlal" ordeni ilə təltif olunan ilk musiqi xadimidir. Tofiq Quliyev 4 oktyabr 2000-ci ildə 82 yaşında Bakı şəhərində dünyasını dəyişib. Məzarı I Fəxri Xiyabandadır.

Görkəmli bəstəkarın yaradıcılığında kino musiqisi xüsusi yer tutur. 21 yaşlı gənc bəstəkar "Səbuhi" filmilə bədii ekranda ilk sənət addımını atır. Bu zaman artıq özünün səsli dövrünü yaşayan Azərbaycan kinosunda filmin musiqisi səssiz kinodan əsaslı fərqlənir. Səssiz kinoda tapyor-pianoçunun standart ifaları filmdən-filmə təkrarlanırdısa, kinonun səsli dövründə yaranan ilk bəstələr getdikcə peşəkar xarakter daşıyır; bəstəkar musiqisi sintetik sənət növü olan kinoda olduqca önəmlidir.

Tofiq Quliyev ilk ekran debütü "Səbuhi" filmilə parlaq yaradıcılıq qələbəsi qazanır. Gənc bəstəkarın musiqisi və mahnıları milli ruhu ilə diqqət çəkir, filmin dramaturji xəttinin inkişafında yeni imkanlar açır. Filmə bəstələnən musiqi və mahnılar bəstəkarın ilk ekran axtarışlarını səciyyələndirir. O, ekran poetikasına bələdliyilə kinoda sənətkar imzasını təsdiqləyir. Yaradıcılığı boyu milli kinomuzun korifeyləri Rza Təhmasib, Lətif Səfərov, Həbib İsmayılov, Tofiq Tağızadə, Həsən Seyidbəyli, Şamil Mahmudbəyov, Tofiq İsmayılov kimi rejissorlar onunla böyük həvəslə işləyir. Ədəbi ssenarini sənətkar həssaslığı ilə duymaq Tofiq Quliyevin kino musiqisinin mühüm xüsusiyyətlərindən biridir. Obrazlı bəstələri filmin əsas leytmotivi ilə yaxından səsləşir, hadisələrin dramatik inkişafında təsirsiz ötüşmür.

Bəzən bədii sözün, ifadəli aktyor oyununun, rejissor və operatorun təsvirdə nail ola bilmədiyi incəliklər Tofiq Quliyevin ekran musiqisində, mahnılarında əksini tapır. Bəstəkarın musiqisi filmin əsas ana xəttindən, onun leytmotivindən ayrılmır, obrazlı şəkildə onu tamamlayır. Tofiq Quliyevin musiqisi ekran dilinə olduqca yaxındır. Bu cəhət özünü 1955-ci ildə çəkilən "Bəxtiyar" musiqili filmində də aydın göstərir. "Bəxtiyar" musiqili filminin dramaturji xəttində mahnı janrı xüsusi yer tutur. "Bəxtiyar"ın uzunömürlü ekran həyatında filmdəki mahnıların özünəməxsus rolu az deyil. "Bakı", "Qızıl üzük", "İlk məhəbbət mahnısı" milli mahnı mədəniyyətimizin qiymətli inciləridir.

Filmin qəhrəmanı Bəxtiyarın sənət yolundan uzaqlaşdığını, bayağı mahnılar oxuduğunu göstərmək üçün Tofiq Quliyev "Zibeydə" mahnısını bəstələyir. Lakin bəstəkarın "bayağı" mahnı saydığı "Zibeydə" Rəşid Behbudov, Müslüm Maqomayev kimi dahilərin repertuarında şərəfli yer tutur. Dünyanın ən nüfuzlu konsert salonlarında səslənir və həmişə alqışlarla qarşılanır.

1955-ci ildə lentə alınan "Görüş" musiqili filmi bəstəkarın tamaşaçılarla yeni görüşü olur. Filmin titrlərindəki musiqi ekspozisiya rolunu oynayır, gələcək hadisələrin motivləri, məzmunu ilə yaxından səslənir. Sözsüz səhnələrə bəstələnən musiqilər hadisələrin inkişaf xətti ilə bərabər xarakterlərin fərqli təqdimində də təsirsiz deyil. Tofiq Tağızadənin rejissor mizanı ilə Tofiq Quliyevin bəstələdiyi musiqi eyni nöqtədə kəsişir. Filmin bədii obrazının yaranmasında Tofiq Quliyevin musiqisi olduqca əhəmiyyətlidir. İncə lirizm, qüvvətli romantika, sevən qəlbin coşqun hiss və duyğuları Tofiq Quliyevin sevgi mahnılarına olduqca doğmadır. Filmin aparıcı xətlərindən olan Kamil və Lalənin məhəbbəti lirik ovqatlı mahnılarında öz poetik həllini tapır.

"Görüş" və "Bəxtiyar" filmlərinə bəstəkarın yazdığı mahnılar tez bir zamanda nəinki Azərbaycanda, eyni zamanda keçmiş SSRİ-də böyük şöhrət qazanır. Dövlət Musiqi Nəşriyyatının Tofiq Quliyevə ünvanladığı 17 oktyabr 1956-cı il tarixli məktubunda bəstəkarın "Bəxtiyar" və "Görüş" filmlərinə yazdığı mahnıların "Teatr və kino mahnıları" seriyasında ayrıca albom kimi buraxılacağı bildirilir.

Tofiq Quliyevin könül rübabının sarı simi hər dəfə yeni bir ahənglə səslənir. Bəstələdiyi musiqilər, yaratdığı mahnılar minbir sənət naxışı ilə cilvələnir. Coşqun, bitib-tükənməyən ilhamı ilə yaratdığı bu naxışların hər biri gözəlliyi ilə tamamilə fərqlidir, bənzərsizdir. Könüllərə, ruhlara hakim kəsilən bu musiqiyə heyrətlənməmək mümkün deyil...

Görkəmli bəstəkarın ekran musiqisi sadəcə illüstrativ xarakter daşımır, əksinə, hadisələrin bədii emosional təsirini qüvvətləndirir. "Ögey ana" filmindəki musiqi dramatizmi ilə bərabər, lirik ovqatı ilə də fərqlənir. Ana qəlbinin məhəbbəti, arzuları poetik vüsətlə filmin musiqisində əksini tapır.

Qərəzli tənqid Tofiq Quliyevin də yaradıcılığından yan keçmir. "Ögey ana" filminə bəstələdiyi musiqi və mahnılar zamanında əsassız, kəskin tənqidlərlə üzləşir. Filmə yazılan mahnıların bu gün də yaşaması bəstəkarın sənətkarlıq qüdrətinə belə qərəzli münasibətin kölgə sala bilmədiyinin ən gözəl təsdiqidir. Bu mahnıların hər biri əslində Tofiq Quliyev musiqisinin ölməz sevgi işığıdır ki, daim nurundan ürəklərə pay düşür...

Bəstəkar kino musiqisinə böyük sənətkar məsuliyyətilə yanaşır. Filmin dramaturji xəttini, kompozisiyasını, bədii fikir yükünü bəstələrilə üzvi şəkildə birləşdirir. Epizoddakı məkanı, aktyor oyununu, işıqlandırmanı, qrimi, kostyumu nəzərdən qaçırmır. Partiturasındakı rəngarənglik bəstələrinə yeni nəfəs, orijinallıq gətirir. "Onu bağışlamaq olarmı?" filminə yazdığı musiqidə Tofiq Quliyev sənətkarlığının yeni cizgiləri görünür. "Onu bağışlamaq olarmı?" filmindəki "Azad bir quşdum..." misrası ilə başlayan bəstəkarın mahnısı dillər əzbəri olmaqla yanaşı, bir çox ifaçıların da repertuarının şah əsərinə çevrilib...

Filmin bədii təsir qüvvəsində Tofiq Quliyevin musiqisi də yeni ifadə xüsusiyyətlərilə diqqət çəkir. Bəstəkarlıq qüdrəti ekranda "Əlahəzrət söz"ü və bəzən təsviri də əvəz etməyə qadirdir. Təsvirlərdən öncə başlanğıc titrlərdəki musiqi sanki filmin ana xəttinin ilk ekspozisiyasına çevrilir. "Nəsimi" filminin mahnıları bəstəkarın kino yaradıcılığındakı ən uca sənət zirvələrindən biridir.

Tofiq Quliyevin "Qayınana" filminə yazdığı musiqi musiqili komediya janrının estetikası ilə yaxından səsləşir. Xalq şairi Fikrət Qocanın sözlərinə bəstələdiyi mahnılar filmin musiqi həllində yeni ifadə boyaları kimi diqqət çəkir. 1979-cu ildə Aşqabadda XII Ümumittifaq kinofestivalında mötəbər münsiflər heyəti "Qayınana" filminin musiqisini yüksək dəyərləndirir. Tofiq Quliyev nüfuzlu festivalın Prizinə layiq görülür.

Tofiq Quliyevin 80 illik yubileyində ulu öndər Heydər Əliyevin onun sənəti haqqında dediyi sözlər bəstəkarın ölməz musiqisinin əbədiyaşarlığından xəbər verir:

*"Azərbaycan xalqı bəşəriyyətə çox görkəmli insanlar, şairlər, yazıçılar, alimlər, sərkərdələr, siyasətçilər bəxş etmişdir. Bunların sırasında, əziz Tofiq, sənin xüsusi, layiqli yerin var... Sən, əziz qardaşım, fəxr edə bilərsən ki, şərəfli bir ömür yaşamısan. Böyük işlər görmüsən. Xalqına sədaqətlə xidmət etmisən. Və xalqın üçün gözəl əsərlər yaratmısan. Ona görə biz hamımız sənə minnətdarıq. Sənə təşəkkür edirik. Sənin yaratdığın əsərlərə görə, sənin bizin xalqımıza bəxş etdiyin gözəl mahnılara görə, sənin musiqinə görə, sənin bəstəkarlığına görə, sənin təşkilatçılığına görə, sənin Azərbaycanın ictimai həyatında daima fəal iştirak etdiyinə görə. Sən böyük işlər görmüsən... Sənin mahnıların bizim xalqımıza, tək bizim xalqımıza yox, bəşəriyyətə, dünyaya böyük töhfələrdir. Sənin mahnıların, sənin musiqin bizim xalqımıza sevinc gətirir, ilham verir, hər bir insan üçün yaşamağa, yaratmağa güc verir... Biz bu dünyadan hamımız gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqiləri daim yaşayacaqdır".*

**Hatəm ƏSGƏROV,**
**Rejissor.**